Fentezi janrının ən böyük üstünlüyü hər millətdən olan oxucuya eyni məsafədə dayanmasıdır. Azərbaycanlı, ingilis, ya da bir yapon oxucu, fərqi yoxdu hər kəs, fentezinin xarakterlərinə eyni dərəcədə yaxın ola bilər. Çünki fentezi müəyyən bir cəmiyyətin və ya ölkənin mentalitetinə uyğun yazılmır, bu janrda qurulan dünyanın öz adətləri və qanunları, cəmiyyətin isə xüsusi düşüncə tərzi olur.

Çox vaxt fentezi haqqında tamamilə bir-birinə zidd fikirlərə rast gəlinir: yüksək prinsiplərin daşıyıcısı olan janrdır və ya boş bir sxemdir; populyarlığı uğurlu reklam kampaniyası sayəsindədir və ya janrın əsl bədii dəyəri insanın intellektual imkanlarını ifadə etməsidir, yaxud donuq janrdır. Bu janra birmənalı olmayan münasibətin tədqiqi günümüzün mühüm ədəbiyyatşünaslıq məsələlərindən biridir.

Ədəbiyyat yeni nəslin formalaşmasına mənəvi qida verməklə yanaşı, ölkənin iqtisadi, elmi, hərbi qüdrətinin yüksəldilməsinə də yardımçı olmalıdır. Bu baxımdan fentezi elmi ixtiralar üçün çox münasib bir mənbədir, çünki insan təxəyyülünün təfəkkürə müsbət təsiri gələcək ixtiralar üçün zəmin yaradır.

Yeni nəslin bəsit keçmişə deyil, mürəkkəb və zəngin məlumatlı gələcəyə meyilliliyi daha mürəkkəb quruluşlu ədəbiyyat tələb edir ki,bu da

fentezi vasitəsilə reallaşa bilər. Fentezi əsərlərin ekranlaşdırılması əsasında yeni kino sənayesinin yaradılması isə iqtisadı nöqteyi-nəzərdən ölkəyə böyük kapital gətirə bilər.

Bu janrın ən əhəmiyyətli xüsusiyyəti, real dünyaya fantastik elementlər qatılması yerinə, tamamilə yazıçı təxəyyülünə söykənən bir dünyada baş verən əhvalatları anlatmasıdır. Bu, mifologiyası, coğrafiyası, tarixi, irqləri ilə, yəni hər detalıyla yazıçıya aid bir dünyadır. Əlbəttə, yazıçı bu dünyanı yaradarkən gerçək dünyanın sözlərindən və bəzi qanunlarından faydalanır. Amma janrın ciddiyə alına biləcək yazıçıları bu sözləri mənsub olduqları mədəniyyətlərdən qoparmağa, onlara tam fərqli mənalar yükləməyə daim diqqət göstərmişlər.

Dünya ilə tanışlığı ilk illərdən etibarən gözlənilməz uğurlar qazanan fentezi janrı Con Ronald Ruel Tolkinin əsərləri ilə yüz miliyonlarla insanın yaddaşında silinməz izlər qoymuşdur. Çıxdığı ilk vaxtlarda ədəbiyyatçıların böyük tənqidlərinə baxmayaraq qısa zamanda oxucuları özünə heyran qoyan fentezi, hazırda dünyada ən çox oxunan ədəbi janr kimi ad çıxarmışdır.Oxucunu fərqli diyarlarda maraqlı mədəniyyətlərlə tanış edərək onun “səyahət etmək” arzusunu gerçəkləşdirən fentezi, hazırda dünyanın ən çox oxunan janrlarından biridir. Bundan sonra da onun yeniləşəcəyinə, zənginləşəcəyinə, bizi müxtəlif diyarlarda gəzdirərkən bəzən əyləndirib, bəzən də düşündürməyə davam edəcəyini fikirləşirik.

Məşhur ingilis yazıçısı, filoloq və dilçi alim Con Ronald Ruel Tolkinin yaradıcılığına müraciət etməyimiz onun əsərlərində fentezi janrının konsepsiyasının formalaşması, həmin əsərlərin digər müəlliflər üçün nümunə olması ilə əlaqədardır. Yazıçının ideyalarını və konsepsiyalarını, düzgün olaraq, ədəbiyyatda bu janrının özülü sayırlar, onun yaradıcılığı isə ədəbiyyatşünaslığın təhlili üçün ciddi materialdır. Tolkinin yaradıcılığında həm janrın xüsusiyyətlərini əks etdirən bir çox səciyyəvi cizgilər, həm də müasir ədəbi prosesin əsasını təşkil edən tendensiyalar birləşir.

Dissertasiya işində fentezinin məzmunu ilə yanaşı, onun janr və üslub xüsusiyyətlərinin bəzi nəzəri məsələlərinin həllinə cəhd edilmiş, Con R.R.Tolkinin bu vaxta kimi Azərbaycan ədəbiyyatşünaslığında tədqiq olunmamış yaradıcılığının öyrənilməsinin vaxtının çatdığı göstərilmişdir. Həmçinin öz yazıçılarımızın ədəbi irsində də dərindən öyrənilməsi və ətraflı araşdırılması tələb edilən fentezi janrı tədqiqat predmeti olmamışdır ki, bu da yalnız janrın nəzəriyyəsini, tarixini, mənbələrini, onun banisinin yaradıcılığını və dünya ədəbiyyatının inkişafına təsirini öyrənmək kontekstində mümkündür. Təqdim edilən iş Azərbaycan

ədəbiyyatşünaslığında fentezi janrına həsr edilmiş ilk elmi-tədqiqat və elmi-nəzəri təcrübədir. Bütün yuxarıda söylənilənlər dissertasiya işinin aktuallığını şərtləndirir.

*Tədqiqatın obyekti* - fentezi janrının yaranması və təşəkkül tapmasının nəzəri prinsipləridir. Eyni zamanda, Azərbaycan ədəbiyyatında fentezi janrının elementlərinin aşkar edilməsinə və tədqiqinə cəhd edilmişdir.

*Tədqiqatın predmeti* – Con Tolkinin yaradıcılığı və onun dünya ədəbiyyatında fentezinin inkişafına təsiridir.

*Tədqiqatın məqsədi* – fentezi janrının dünya ədəbiyyatında formalaşması və inkişafında Con Tolkinin yaradıcılıq irsi fenomeninin araşdırılmasıdır. Bu məqsəd aşağıda göstərilən məsələlərin qoyuluşunu və həllini müəyyənləşdirmişdir:

1) fentezi janrın yaranmasına xidmət edən ilkin şəraiti təhlil etmək;

2) XX-XXI əsrin ədəbi janrı kimi, fentezi haqqında nəzəri bilgilər vermək;

3) Con Tolkinin müəllif mifologiyasını, fentezi janrının yaranması kontekstində araşdırmaq;

4) fentezi janrı banilərinin yaradıcılığını qiymətləndirmək və onların dünya ədəbiyyatında fentezi janrının inkişafına təsirini müəyyən etmək;

5) Azərbaycan ədəbiyyatında fentezi janrı elementlərini tapıb üzə çıxarmaq və təhlil etmək;

6) mövzunun Azərbaycan ədəbiyyatşünaslığında bundan sonrakı araşdırılmasının mümkünlüyünü müəyyən etmək.

*Tədqiqat metodları.* Məqsədlər və qoyulan məsələlər, filologiya, kulturologiya, psixologiya, fəlsəfə və sosiologiyanın elmi dəlillərindən istifadə etməklə, tədqiqatın, ədəbi hadisənin öyrənilməsinə kompleks yanaşma tələb edən metodoloji prinsiplərini müəyyənləşdirir.

Tədqiqat prosesində aşağıda adıçəkilən analitik metodlardan istifadə olunmuşdur: tarixi-nəzəri, mədəni-tarixi, bioqrafik, müqayisəli-tipoloji.

Dissertasiyanın metodoloji bazasını, ədəbiyyatşünaslıq kateqoriyası kimi, fentezi janrının tarixi və nəzəri problemləri ilə əlaqədar Q.N.Pospelovun, M.M.Baxtinin, N.L.Leydermanın, R.Uellekin, O.M.Freydenberqin, M.S.Kaqanın, D.S.Lixaçevin, B.V.Timaşevskinin, L.V.Çernesin nəzəri araşdırmaları təşkil edir. Müasir fentezi janrının ədəbiyyatşünaslıq və kulturoloji məsələləri üzrə, tarixi və fəaliyyəti haqqında A.F.Losevin, E.M.Meletinskinin, A.A.Taxo-Qodinin tədqiqatlarının müasir bədii təfəkkürdə mifoloji aspektləri, V.Y.Proppun, A.A.Potebnyanın folklorun xüsusiyyətləri, S.Lemin, Y.Kaqarlitskinin,

T.Çernişevanın, E.Neyelovun, M.Uaytın, S.Todorovun fantastika və fentezi janrının özünəməxsusluğu, V.V.İvaşevanın, N.P.Mixalskayanın, Q.V.Anikinin ingilisdilli ədəbiyyat tarixi üzrə tədqiqatları, habelə Con Tolkinin yaradıcılıq işlərinə həsr olunmuş elmi işlər öyrənilmişdir.

*İşin elmi yenilikləri.* İlkin olaraq, Azərbaycan ədəbiyyatşünaslığında fentezi janrının xüsusiyyətlərinə dair tədqiqat işləri aparılmışdır, əsas janr özəllikləri müəyyənləşdirilmiş, fentezi janrının müasir ədəbi janrlara məxsusluğu göstərilmişdir. Con Tolkinin yaradıcılığı Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə müasir ingilis ədəbiyyatı kontekstində tədqiq olunmuş, fentezi janrının təşəkkül prosesi və onun dünya ədəbiyyatına təsiri öyrənilmişdir.

İlk dəfə olaraq Azərbaycan yazıçılarının yaradıcılığında fentezi janrı elementlərinin tapılıb üzə çıxarılmasına cəhd edilmişdir.

*Tədqiqatın praktiki əhəmiyyəti.* Müasir ədəbiyyatda fentezi janrının öyrənilməsinə yeni yanaşma təklif olunur. Tədqiqatın materialları və nəticələri, dünya ədəbiyyatı fənnini, ingilis ədəbiyyatı tarixinə, mifologiyaya, folklora dair xüsusi fənnləri zənginləşdirə və genişləndirə, Azərbaycan ədəbiyyatında fentezi janrı haqqında xüsusi kursların və mühazirələrin hazırlanmasında material kimi istifadə oluna bilər.

*Tədqiqatın nəzəri əhəmiyyəti.* Bu iş ədəbi problem kimi fentezi janrının nəzəri aspektlərinin öyrənilməsinə öz töfəsini verir, fentezinin ədəbi janr kateqoriyalarına aid olduğunu izah edir, onun ətraflı təsvirini verir. Tədqiqat fentezi janrının banisi Con Tolkinin yaradıcılığının öyrənilməsində elmi biliklər bazasını yeni məlumatlarla zənginləşdirir, Azərbaycan yazıçılarının yaradıcılığında fentezi elementlərini müəyyən edir.

*Tədqiqatın nəticələri* Con Tolkinin və digər fentezi müəlliflərinin yaradıcılığının öyrənilməsində və təhlilində, fentezinin müasir ədəbi janr kimi araşdırılmasında istifadə oluna bilər.

*Müdafiəyə çıxarılan əsas müddəalar:*

1. Əsas əlamətləri müəllif təxəyyülünün yaratdığı magiya, inandırıcı ziddiyətsiz ictimai və təbii mühit –"ikinci dünya" olan fentezini ədəbi janr kimi qəbul etmək təklif olunur. Janrın formalaşmasında əsatirlərin, nağılların, cəngavərlik və macəra romanlarının əhəmiyyətli rolu var.

2. Əsatir fentezi janrının quruluşunu müəyyən edən etik-estetik zəmin sayılır. Fentezinin öz qanunları olan "ikinci dünyası"nda əsatir fantastika və gerçəklik üçün ümumi zona yaradır.

3. Fentezi özünü mədəniyyətin yeni multimedia təzahürlərində ifadə edir. Fentezi əsərlərinin bir-birinə qarşılıqlı təsir edən mətndənkənar təcəssümlərinin tənzimlənmiş kompleksi vahid bir fəaliyyətdə birləşir.

4. Con Tolkin müasir fentezinin banisi və janrın ilk nəzəriyyəçisidir. O, öz konsepsiyasını "Sehirli nağıllar haqqında" essesində formalaşdırır. Fentezinin əhəmiyyətli əlamətləri – gerçək "ikinci dünya"nın yaradılması, yaş məhdudiyyətinin olmaması və eskapizmdir.

5. Con Tolkin fentezi janrında yazanların yaradıcılığına əhəmiyyətli təsir edə bilmişdir, onun əsatir yaradıcılığı ardıcılları üçün örnəkdir.

6. Azərbaycan yazıçılarının yaradıcılığını təhlil etdikdə janrın elementləri üzə çıxır və fentezi janrının Azərbaycan ədəbiyyatında gələcək tədqiqi üçün təməl yaranır.

*Tədqiqatın aprobasiyası.* Dissertasiya işi Bakı Dövlət Universitetinin "Dünya ədəbiyyatı" kafedrasında işlənilmiş, müzakirə olunmuş və müdafiəyə təqdim edilmişdir. Tədqiqatın əsas müddəaları AAK-ın tövsiyə etdiyi müxtəlif filoloji və tematik məcmuələrdə, həmçinin yerli və xarici elmi nəşrlərdə dərc olunmuşdur.

Müdafiəyə çıxarılan əsas tezislərin aprobasiyası müxtəlif səviyyəli elmi konfranslarda, o cümlədən Ukraynada XXI Beynəlxalq praktik konfransda və Bakıda respublika elmi-praktik konfransında keçirilmişdir.

*Dissertasiya işinin strukturu.* Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin *Giriş* hissəsində tədqiq olunan mövzunun aktuallığı, onun obyekti, predmeti, məqsədi, qoyulan məsələlər, elmi yeniliklər, nəzəri-metodoloji konsepsiyası, praktiki əhəmiyyəti əsaslandırılmış, müdafiəyə çıxarılan əsas müddəalar müəyyənləşdirilmişdir.

"Fentezi janrının yaranma səbəbləri" adlı *birinci fəsildə*, yeni janrın yaranmasına xidmət edən ilkin şərtlər, ədəbi və mədəni elementlər təhlil edilmişdir. Fəsil ədəbi janrın yaranması tarixinə həsr olunmuşdur. Burada fentezi fenomeninin məhz janr kateqoriyasına aid edilməsinin (istiqamət və ya metod deyil) məntiqə uyğunluğu sübuta yetirilir, tədqiqatçıların fikirləri ümumiləşdirilir, fentezinin müasir mədəniyyət məkanındakı əsas səciyyəsi, növləri, xüsusiyyətləri göstərilir, mənbələri və nəzəri prinsipləri təhlil olunur. Əsatirlərə və nağıllara yeni janrın formalaşmasında əsas mənbələr kimi baxılır. Əsatir fentezinin əsas etik-estetik və struktur əsaslarını təşkil

edir. Fentezi əsərlərində "ikinci dünya" əsatirə əsaslanır ki, bu da əsərin dərk olunmasında zəruri dürüstlüyü təmin edir.

Qədim Yunan əsatirləri və orta əsr dastanları fentezi ədəbiyyatının ilkin mənbələri sayılır. Müasir insan "mifik düşünmək", xəyali ideoloji və ya bədii mühakimələri ərz etmək və onlara inanmaq qabiliyyətinə sahibdir. Psixoanaliz nəzəriyyəsinin yaradıcıları Ziqmund Freyd və Karl Qustav Yunq belə nəticəyə gəlmişlər ki, qədim və müasir insanın düşüncəsində fərqlər olmasına baxmayaraq, bu, o qədər də ciddi mahiyyət daşımır. Yunqa görə, təfəkkürün dərin "arxeptik"əsasları, tərəqqi nəticəsində dəyişə bilməz. Həmçinin müəyyən edilmişdir ki, "mifoloji fantaziyanın bədii fantaziya ilə və ümumiyyətlə, insan fantaziyası ilə oxşarlığı var".[1]

"Fentezi janrının yaranma tarixi və əsasları" adlı *birinci yarımfəsildə* janrın yaranma tarixi, qədim fentezi nümunələri təhlil olunur. Göstərilir ki, fentezi – zəngin tarixi zəminə malik daha cavan ədəbi janrdır.

Əsasını çoxlu fentezi əsərlər təşkil edən qədim german mifoloji və qəhrəmanlıq dastanları, o cümlədən, island saqası "Böyük Edda», "Beovulf" epik poeması və fin eposu "Kalevala" tədqiq olunmuşdur. Müasir fentezi özündə dünya mifologiyasını, qədim əfsanələri, orta əsr xronikası və eposunu, romantizmi cəmləmişdir.

XIX əsrin əvvəllərindən başlayaraq fantastik ədəbi əsərləri "fantaziyalar" (fantasy) adlandırırdılar. Ənənəvi olaraq, fantastika ədəbiyyatna fentezi janrının əsası kimi baxılır. Misal üçün, "Qısa ədəbi terminlər və anlayışlar ensiklopediyası"nda fentezi termininin tərifi belə verilir: "Fentezi (ing. fantasy-"fantaziya") – fantastika ədəbiyyatı növü və ya irrasional xarakterin süjet fərziyyəsinə əsaslanan, qeyri-adilik haqqında ədəbiyyatdır. Elmi fantastikadan fərqli olaraq rasional izahı olmayan faktların və hadisələrin mövcudluğunu fərz etsək, bu fərziyyənin mətndə məntiqi motivasiya yoxdur".[2]

Fentezi ədəbiyyatının əsas kateqoriyası, əsərin keyfiyyətini, bədii dəyərini, populyarlığını müəyyən edən, əsatir əsasında qurulmuş "ikinci dünya"dır. Müəllif onun vasitəsi ilə özünün inandırıcı və məntiqi gerçəkdünyasını qurur, ənənəvi əsatirləri başqa cür dərk edir və ya onların bəzi elementlərindən istifadə edir, özünün mifologiyasını uydurur, əsatir qəhrəmanlarını müasir dünyamıza gətirir.

---

[1] Подопригора С.Я. Философский словарь. Изд. 2-е, Ростов н /Д.: Феникс, 2013, с. 235-236

[2] Гопман В.Л. Фэнтези. //Литературная энциклопедия терминов и понятий. М.: Интелфак, 2001, с.1161-1164

A.F.Losev “Əsatirin dialektikası” kitabında yazır: “Əsatir özünün ən böyük konkretliyinə görə, maksimal intensiv və yüksək dərəcədə gərgin reallıqdır. Bu, uydurma deyil, daha çox parlaq və daha xalis həqiqətdir. Bu, təfəkkürün və həyatın hər cür təsadüfdən və özbaşınalıqdan uzaq, tamamilə zəruri kateqoriyasıdır... Bu, həqiqi və ən konkret reallıqdır”.[1]

Janrın əhəmiyyətli əsaslarından biri də, janr çərçivəsində modifikasiya və adaptasiya olunmuş nağıldır. V.Y.Propp hesab edir ki, nağılın səciyyəsi “öncədən xəyalın qurulmasında, bu zaman sehirli nağılın öz kompozisiya-struktur xüsusiyyətləri ilə fərqlənməsindədir”.[2]

Fentezi janrını bəzən “müasir müəllif nağılı” adlandırırlar.[3] 1972-ci ilin müxtəsər ədəbi ensiklopediyasında fentezi, “möcüzə, magiya, cəngavər eposları motivlərinin və realist nağıl fəndlərinin birgə istifadə edildiyi, ədəbi nağılın xüsusi növü”[4] adlandırılır.

Möcüzə nağıllarının kompozisiya funksiyaları fentezi janrı əsərlərində, ələlxüsus da, süjet baxımından kvestalarda (ing. quest-“axtarış, axtarış predmeti, sərgüzəşt axtarışında, cəngavər andının yerinə yetirilməsi”) geniş istifadə oluna bilər.

Fentezi nağıl arxetiplərini, süjet modellərini və motivlərini fəallıqla mənimsəyir. Yeni janr çərçivəsində “sınaraq” nağıl fentezidə bədii təfəkkürü bilərəkdən həqiqi reallıq kateqoriyasına keçirməklə, onu yenidən yaradır.

Böyük Britaniyada müasir fentezinin yaranması Corc Makdonaldın (G.Macdonald, 1824-1905) və Uilyam Morrisin (W.Morris, 1834-1895) adı ilə bağlıdır.[5]

Bu fəsildə tədqiq olunan məsələlər, sonradan öz inkişaf istiqamətini tapan tam bir tarixin yaranması ilə nəticələnmişdir.

“Fentezi janrının nəzəri əsasları” adlı *ikinci yarımfəsil* fentezi janrının gələcəkdə öyrənilməsi və işlənilməsi vacib olan tədqiqi problemlərinə həsr olunmuşdur. Burada müasir ədəbiyyatşünaslıqda fentezi

---

[1]Лосев А.Ф. Диалектика мифа. М.: Правда, 1990, с. 2

[2]Пропп, В.Я. Морфология волшебной сказки. М.: Лабиринт, 2001, с.9

[3] Дрозд Е. Слушайте звезды! // Волны в океане фантастики. Сборник фантастики. М.: 1990, с. 464

[4]Нудельман Р.И. Фантастика // Краткая литературная энциклопедия. Т. 7, М.: Сов.энцикл., 1962 – 1978, с.887

[5] Самсонова А.И. Мотив пути в литературе фэнтези: Дж.Макдональд у истоков традиции. // Вестник Нижегородского университета им. Н.И.Лобачевского, 2014, №2(3), с.138-141

haqqında müxtəlif elmi tədqiqatlara baxılır: həm ədəbi istiqamət, həm də bədii metod və janr kimi. Ədəbi və elmi sorğu kitablarında fentezinin istiqamət, metod, xüsusi növ ədəbi əsər, nağılın müxtəlif növü kimi bir sıra təriflərinə rast gəlirik. Düşünürük ki, fentezi ədəbi janr kateqoriyasına aiddir və onun öyrənilməsinə bu cür yanaşma janrın inkişaf xüsusiyyətlərinin və əsas əlamətlərinin üzə çıxarılmasında daha faydalı olar. Tədqiqatın nəticələri əsasında fentezi janrının tərifi təklif olunur.

Qeyd etmək lazımdır ki, bir çox tədqiqatçılar fentezinin ümumi janr təsnifatını verməyə cəhd etmişlər.

Tədqiqat zamanı fentezinin aşağıda göstərilən janr əlamətləri aşkarlanmışdır:

1) reallıqda mümkünsüz, özünəməxsus xassəli, xəyali dünya;

2) folklor personajları və magiya zərurət kimi;

3) orta əsrlər mühiti;

4) axtarış, macəra süjeti, səyahət, müharibə;

5) texnologiya ilə sehrbazlıq arasında sonuncunun xeyrinə olan qarşıdurma;

6) xeyirlə şərin mübarizəsi süjetin ana xəttidir;

7) qəhrəmanlar öz əməlləri, duyğuları ilə birinci plandadır, sehirbazlıq və nağıl ünsürləri heç də ikinci dərəcəli olmayan köməkçi rolları oynayırlar;

8) fani dünyanın elementləri və onun təzahürü;

9) müəllif sərbəstliyi, çünki fentezinin sehrli dünyasında hər şey mümkündür və süjet gözlənilməz tərzdə dəyişə bilər.

Fentezini haqqında danışılarkən nağıl-mifoloji əsaslar, dünyanın fantastik mənzərəsi, janrların sintezi ön plana çəkilir. Fentezidə əsatir-əfsanə, cəngavər romanları, qotik romanlar, qəhrəmanlıq eposu, ədəbi nağıl, simvolistlərin romantik okkult-mistik povestləri, postmodern roman janrları və istiqamətlərinin komponentlərini tapmaq olar. Beləliklə, müasir ədəbiyyatşünaslıqda fentezi janrı üçün bu gün ümumi qəbul olunmuş tərif belə mövcud deyil.

Bir çox tədqiqatçılar fentezinin tərifini verməyə çalışmışlar. Fentezini "mifik və nağıl motivlərindən istifadəyə əsaslanan fantastik ədəbiyyat növü" kimi təsvir edən təqiqatçıların fikirləri ilə razılaşmaq olar.[1]

---

[1]Балдаев С. Мир фэнтези в современной литературе. // Исследовательская работа по литературе – 23 Февраля 2010. Блог исследователь. [Электронный ресурс] (2010). 34 с. Режим доступа: http://saved_zolotoirodnik.ucoz.ru)

T.Çernışeva "Fantastikanın mahiyyəti" kitabında ümumilikdə fantastikanın tərifi haqqında fikir yürüdərək qeyd edir ki, "bu, imkansız bir işdir, çünki hər hansı bir təriflə kifayət qədər razılaşan çoxluğu tapmaq mümkün deyil" [1]. Fentezinin ilk addımları bir çox tədqiqatçıların postmodernizm adlandırdığı incəsənət hadisəsinin yüksəlişi ilə üst-üstə düşür. Fentezi, öz növbəsində, postmodernizmə təsir etməklə onun əks təsirini də hiss etməyə bilməzdi. O, postmodernizm estetikasından çox şey götürüb. "Dünyanı mahiyyət və mahiyyəti dünya kimi dərk etmək, real həqiqəti xəyali həqiqətlə əvəz etmək və insanın həyatdan uzaqlaşmaq ideyaları və mədəniyyət ünsürlərindən ibarət öz dünyasını yaratmaq ideyaları"[2] buna aiddir.

Con Tolkin "Sehrli nağıllar haqqında" (fairy-stories) essesini fentezi janrının mahiyyəti və funksiyaları ilə əlaqədar nəzəri problemlərə həsr etmişdir. Bu esse yazıçının yaradıcılığının estetik proqramı olmaqla yanaşı, onun "Üzüklər hökmdarı" əsəri üzərində işləməsini şərtləndirmişdir. "Sehrli nağıllar haqqında" əsəri uğursuz reallıqdan azad olmaq, qaçmaq üçün vasitə kimi qəbul edilir. Qaçmaq (ing. escape) – Con Tolkinin essesinin də, fentezi tərəfdarlarının və tənqidçilərinin də mühüm mövzusudur. Əsərdə Con Tolkinin fəlsəfi-estetik dünyagörüşü, "sehrli nağıllar" janrı haqqında təsəvvür, onun auditoriyası və mənşəyi ifadə olunmuşdur. Yazıçı "sehrli nağıllar"da müəllif tərəfindən yaradılmış "ikinci dünya"nın xüsusiyyətlərini təhlil edir, bunlarda Magiyaların və Fantaziyaların, həmçinin Qaçış və Təsəllinin, yəni eskapizmin mövcudluğunun zəruriliyini qeyd edir. Beləliklə, Con Tolkinə görə, "sehrli nağıllar" janrı müasir fentezi janrı anlayışına daha yaxındır.

Tədqiq prosesində fentezi ədəbi janrını digər qeyri-real ədəbi janrlardan fərqləndirən aşağıdakı əlamətlər aşkarlanmışdır:

1. Elmi cəhətdən yoxlanılmasının mümkünsüzlüyü fentezini elmi fantastikadan fərqləndirir.

2. Mistik ədəbiyyatdan fərqli olaraq, təsvir edilən cəmiyyətlərdə xəyali dünya və antitexnogenlik fentezi üçün mütləqdir.

3. Qorxu ədəbiyyatından fərqli olaraq, fentezi üçün, fövqəltəbiiliyin mövcudluğu gerçəklik kimi qəbul olunur və izahı tələb etmir.

---

[1] Чернышева Т.А. Природа фантастики. Иркутск: Изд-во Иркутск. ун-та, 1984, с.43.

[2] Курицын В. Постмодернизм: новая первобытная культура // Новый мир, 1992, с.71

4. Fentezi nağıldan süjet sxeminin elastikliyi və təhkiyənin qabarıq psixoloqizmi ilə fərqlənir.[1]

Fentezi janrı "ayrı-ayrı yazıçıların gücü ilə ciddi qanunlar və qaydalara uyğun şəkildə xəyali dünyanı layihələndirir, bu, elmi tələblərlərlə məhdudlaşdırılmayan azad təxəyyül əsasında, başlıca olaraq, mistika, magiya və sehrbazlıq hesabına inanılmaz fərziyələr yaradan fantastikanın bir növüdür".[2]

Tədqiqatçılar tərəfindən fentezinin aşağıdakı növləri qeyd olunur:

1. qəhrəmanlıq
2. epik
3. qara
4. əyləncəli
5. tarixi
6. yumoristik və porodiya
7. şəhər
8. mifoloji
9. gənclər
10. texnofentezi
11. intellektual
12. döyüş
13. detektiv
14. sərgüzəştli
15. qadın
16. slavyan
17. yapon

Bu fəsildə müasir ədəbiyyatda və mədəniyyətdə fentezinin ümumi səciyyəsi şərh olunur. Janrın nəzəriyyəsi ilə bağlı fundamental tədqiqatlara, həmçinin fantastik ədəbi məsələlərə dair daha mötəbər xarici müəlliflərin işlərinə istinadən fentezinin ədəbi janr olduğu isbat edilir, onun tərifi verilir, əsas xüsusiyyətləri sadalanır.

Dissertasiyanın "İngilis ədəbiyyatında fentezi janrı və Tolkinin yaradıcılığı"adlanan fəsli *iki yarımfəsildən* ibarətdir. "Con Ronald Ruel Tolkin fentezinin banisidir" adlı *birinci yarımfəsildə* yazıçının yaradıcılıq irsi fentezinin janr kimi formalaşması kontekstində təhlil olunur, onun

---

[1] Новичков А.А. Авторские топонимы в романах фэнтези // Альманах современной науки и образования. 2009, №8. Тамбов: Грамота, 2009, с.130

[2] Олейник В.К. Очерки истории зарубежной литературы XX в. Курган, 1996, с.47

yaradıcılığının xüsusiyyətlərini müəyyən edən müəllif mifologiyasının təşəkkülü tarixi, ilkin bədii yaradıcılıq və əsatir yaradıcılığı təcrübəsi tədqiq olunur.

Yaradıcılığı ingilis milli ədəbiyyatı çərçivəsinə sığışmayan, ədəbiyyatçı, sənətkar, professor, filoloq-linqvist, ingilis dili üzrə Oksford lüğətinin yaradıcılarından biri, dahi nəzəriyyəçi və fentezi janrının banisi Con Ronald Ruel Tolkini (1892-1973) dünya incəsənət xəzinəsinə bənzərsiz töhfələr verən yazıçılar sırasına aid etmək olar. "İngilis ədəbiyyatı"nın akademik fənn kimi formalaşmasında onun əhəmiyyətli rolu olmuşdur. [1] Con Tolkinin yaradıcılığı fentezi ədəbi janrının formalaşmasında həlledici rol oynamışdır. Son əlli ildə fentezi janrında minlərlə əsərlər yaranmışdır ki, onların da müəllifləri öz yaradıcılıqlarına görə Con Tolkinə minnətdar olmalıdırlar. Lakin həmin əsərlərdən heç biri oxucuda "Hobbit", "Üzüklərin hökmdarı", "Silmarillione", "İtirilmiş nağıllar"da təsvir edilmiş dünya qədər təəsürat yaratmamışdır. Fentezi janrında yazıb-yaradan müasir müəlliflərdən fərqli olaraq, Con Tolkin, demək olar ki, ömrünün altmış ilini bu janrda əsərlərin yaradılmasına həsr etmişdir.

Həm alim, həm də yazıçı olan müasir fentezi janrının banisi mifologiyaya iki üsulla yanaşır: elmi və yaradıcı.

Con Tolkinin yaradıcılığı, demək olar ki, çox qısa zaman ərzində müxtəlif aspektlərdən araşdırılmışdır və hələ də tədqiq üçün maraq kəsb edir.

Con Tolkinin irsinə həsr olunmuş ədəbiyyatı aşağıdakı kimi sistemləşdirmək olar: ingilisdilli tənqiddə - P.Koçerin "Master of Middle-earth. The Fiction of J.R.R.Tolkien" ("Aralıq dünyanın sahibi". Tolkinin romanları", 1972) və C. Nitse "Tolkien's Art:A Mythology for England" ("Tolkin sənəti: İngiltərə üçün mifologiya", 1979), T.Şippi "The Road to Middle-Earth" ("Aralıq dünyaya yol", 1982). Buraya həmçinin K.S.Lyuis, P.Qrant, X.Kinan, C.S.Rayan, S.Koşelev, M.Kamenkoviç, R.Kabakov, İ.Vinterle, E.Apenko, S.Lixaçeva, S.Taskayeva, O.Potapova kimi müəlliflərin tədqiqatlarını aid etmək olar.

Yazıçıya həsr olunmuş işləri yalnız bir tədqiqat çərçivəsində təhlil etmək mümkün deyildir. Lakin Hamfri Karpenter və Maykl Uaytın yazdığı bioqrafiyalar, Mark Hukerin "Tolkin rus gözü ilə", Brayen Rouzberinin "Tolkin: sənət fenomeni" və Con Qartın "Tolkin və Böyük Müharibə"

[1] Shippey T.A. The Road to Middle-Earth. London: 1982, p.7

kitabları yazıçının yaradıcılıq yolunun əsas istiqamətlərini və inkişaf xüsusiyyətlərini üzə çıxarmağa kömək edir.

Con Tolkin haqqında tədqiqatlar tarixi-coğrafi, psixoloji, linqvistik, teoloji, ezoterik, ədəbiyyatşünaslıq istiqamətlərinə bölünür. Bunların arasında daha müfəssəli və zəngin planlısı ədəbiyyatşünaslıqdır. Nəzəri tolkinçilik Tolkinin əsərləri və yaratdığı dünyalar haqqında tədqiqatları bir məcraya yığır. Buraya yazıçının mətnlərini müxtəlif nöqteyi-nəzərdən təhlil edən işlər aiddir. Həmin araşdırmalar Con Tolkinin təxəyyülündə yaratdığı dünyanın dərk olunmasına və onun strukturunun təhlilinə əhəmiyyətli bir cəhddir.

Con Tolkin yazır: "Bir çöx uşaqlar uydurulmuş dillər yaradır və ya yaratmağa səy göstərirlər. Mən bu işə yazmağı öyrənəndən başlamışam və bu məşğuliyyəti davam etdirirəm. Əlbəttə, peşəkar dilçi kimi, mən zövqləri dəyişdim, nəzəri bilikləri dərinləşdirdim və ehtimal ki, bu peşənin vərdişlərinə daha yaxşı yiyələndim. İndi isə mənim ardımca – dillərdən ibarət zəncir gəlir...".[1]

Con Tolkinin işləyib hazırladığı mürəkkəb "elfik" dillər "Silmarillionun" və "Üzüklərin hökmdarı"nın şəxsi və coğrafi adlar sistemini, dil çalarlarını müəyyən etmişdir. Bu dillər vasitəsi ilə yazıçı öz mifologiyasını yaratmışdır. O, yazır: "Bizim dünyada dil və mif eyni zamanda meydana gəlir".[2]

*İkinci fəslin* "Dünya ədəbiyyatında fentezi janrının inkişafına Tolkin yaradıcılığının təsiri" adlı *ikinci yarımfəslində* əsas diqqət ədibin ənənələrini davam etdirən yazıçıların əsərlərinin tədqiqinə yönəlib.

Con Tolkinin təsir dairəsi fentezi janrı sərhədlərindən kənara çıxır. Onun yazıçı dünyası çoxsaylı ciddi tədqiqatların predmetinə çevrilir, müəlliflər Tolkin əsərlərinin incə çalarlarını araşdırır və təhlil edirlər.

Con Tolkin naşir Milton Uoldmenə yazırdı: "Mən bu gözəl nağıllardan bəzilərini başa çatdırmaq, digərlərini isə sxem və eskizlər şəklində saxlamaq istəyirəm. Silsilə işləri böyük məcraya yığmaq lazımdır və bu işləri filmlər, musiqi, pyeslər yaradan özgə zəkalar və əllər üçün saxlamaq lazımdır".[3]

---

[1]Толкин Дж.Р.Р. Письма. М.: Изд-во Эксмо, 2004, с. 143

[2]Толкин Дж.Р.Р. О волшебных сказках // Лист работы Мелкина и другие волшебные сказки. М., 1991, с.260

[3]http://www.arwen-undomiel.com/tolkien/quotes.html (I would draw some of the great tales in fullness, and leave many only placed in the scheme, and sketched.

Müasir fentezi Con Tolkinin sayəsində populyarlıq tapmış qnomlar, elflər, qoblinlər, trollar kimi arxetiplərə əsaslanır. Hobbitlər və orklar yazıçı təxəyyülünün məhsuludur və fentezidə daimi yerini tapmışdır. "Hobbit" sözü "Oksford ingilis dili lüğətinə" salınmışdır.[1]

Bundan əlavə, özlüyündə nağıllar və cəngavərlik romanlarının arxetiplərinə əsaslanan "Üzüklərin hökmdarı" süjeti sonradan bir çox əsərlərdə prototip kimi istifadə olunmuşdur. Onun ardınca Terri Bruksun "Şannaranın salnamələri" (1977), Dennis Makkirnanın "Mitqarın xronikaları" (1984-2014), Helmut Peşin "Elderland" (1998-2000), Kristofer Paolininin "Eraqon" (2003-2011) əsərləri yazılmışdır. Müxtəlif ölkələrin Tolkin cəmiyyətləri "The Tolkien Society"də birləşmişlər, illik "Tolkien Studies" nəşr edirlər, bununla yanaşı, nağıl-mifik poeziyasının inkişafında xidmətlərə görə "Mifopoeya" (Tolkinin eyni adlı şeiri) mükafatı təqdim edən "Mythopoeic Society" təşkilatı yaradılmışdır.

Con Tolkin yaradıcılığı bir çöx ölkələrdə oxucu marağını özünə cəlb etmişdir. 1992-ci ildə Finlandiyada yazıçının 100 illik yubileyinə həsr olunmuş konfrans keçirilmişdir. Belçikada onun yaradıcılığına həsr olunmuş "Cirth de Gandalf", Kanadada "Mythlore", İngiltərədə "Quettar", ABŞ-da "Vinyar Tengwar", "Parma Eldalamberon", Rusiyada "Palantir" jurnalları nəşr edilir.

Con Tolkinin qoyduğu ənənənin davamına parlaq nümunə kimi hadisələrin eyni dünyada baş verdiyi, lakin müxtəlif müəlliflər tərəfindən yazılmış "Dragon Lance" ("Əjdaha nizəsi") və "Forgotten Realms" ("Unudulmuş krallıq") əsərlər silsiləsini göstərmək olar.

Piter Ceksonun ekrana çıxan və tənqidçilərin inanılmaz heyrətinə səbəb olan filmi yeni minilliyin 2001-2003-cü illərində Tolkin fenomenini daha geniş auditoriyaya tanıtdı. P.Ceksonun "Üzük qardaşlığı" (2001), "İki qəsr" (2002), "Kralın qayıdışı" (2003) ədəbi trilogiyasına yüz milyonlarla tamaşaçı baxmışdır. Trilogiya yeni innovativ vizual effektlərdən istifadə

---

The cycles should be linked to a majestic whole, and yet leave scope for other minds and hands, wielding paint and music and drama.)

[1] Oxford Advanced Learners Encyclopedic Dictionary. Oxford: Oxford University Press, 1994, 1081 p. Hobbit, n, pronunciation:/'habit/ In the tales of J.R.R.Tolkien (1892-1973):one of an imaginary people, a small variety of the human race, that gave themselves this name (meaning 'hole-dweller') but were called by others halfings, sinse they were half the height of normal men.

olunmaqla təqdim edilir, Hollum tam olaraq hərəkətin tutulma texnologiyası ilə yaradılmış ilk personajdır.[1]

Əsərin ilk nəşrindən əlli il sonra ekrana çıxan film ona hələ özləri üçün xəyali dünya kəşf edəcək yeni oxucu nəsillərinin də diqqətini cəlb edə bilmişdir.

ConTolkinin təsiri digər incəsənət sahələrində də hiss olunur. "Blind Guardian" rok-qrupunun "Nightfall in Middle-earth" ("Dünyalararası toranlıqlar") albomu tamamilə "Silmarillion"un süjetləri əsasında yaranmışdır. Məşhur rəssamlar Tolkinin kitablarına illüstrasiyalar çəkmiş, onun süjetlərindən təsirlənərək əsərlər yaratmışlar: İngilis ər-arvad Harlendləri belələrinə misal göstərmək olar. Fentezinin əksər müəllifləri öz naliyyətlərinə görə məhz Tolkinə minnətdar olmalıdırlar. Kainatlarlararası dünya bir çox müasir kompyuter oyunlarının əsasını və əyləncə sənayesinin hədəfini təşkil edir.

Amerikalı Ted Uilyamsı ( "Yaddaş, qəm, tikan" trilogiyası,1988-1993), Corc Martini ("Buz və Odun nəğməsi" silsiləsi, 1996), kanadalı Hay Hevriel Keyi ("Fyonavarın qobelenləri" trilogiyası, 1984-1986), avstraliyalı İyen İrvini ("Güzgüdən görünüş" silsiləsi, 1998) Tolkin yaradıcılıq irsinin ardıcılları adlandırmaq olar. "Sehrbazlıq dünyası" silsiləsinin (1963-1998) və bir sıra əsərlərin müəllifi olan Endryu Horton macəra-romantik fentezi istiqamətinin öncülü oldu. Tolkin Meri Renonun qədim yunan əfsanələri ilə krit-miken dövrünün reallıqlarının çulğaşdırıldığı "Tesey" dilogiyasını yüksək qiymətləndirir. Tolkin irsinin davamçısı Marion Zimmer Bredlinin "Avalonun dumanları" (The Mists of Avalon, 1983) romanı Artur mövzusunun daha bir orjinal interpretasiyası kimi geniş nüfuz qazanmışdır.

Dissertasiyanın "Azərbaycan ədəbiyyatında fentezi ünsürləri" adlanan *üçüncü fəsli* iki yarımfəsildən ibarətdir və müasir Azərbaycan nəsrində fentezi elementlərinin araşdırılıb üzə çıxarılmasına həsr olunmuşdur.

"XX əsrin 60-70 illərində Azərbaycan nəsrində fentezi sübutları" adlanan *birinci yarımfəsildə* Azərbaycan yazıçılarının əsərlərində fentezi elementləri araşdırılır. XX əsrin ikinci yarısında yaranmış fentezi ən yeni dünya ədəbiyyatının populyar və mütərəqqi janrı kimi bizim nasirlərin də yaradıcılığında öz əksini tapmışdır. Hər bir yeni ədəbi hadisə kimi fentezi janrı da müasir Azərbaycan ədəbiyyatşünaslığında bir çox suallar doğurur. Milli ədəbiyyatşünaslığımızda yeni öyrənilən bu müasir incəsənət fenomeni müfəssəl və dərin araşdırmalar tələb edən tədqiq olunmamış sahədir.

---

[1]https://ru.wikipedia.org/wiki

Fentezinin zaman sərhədləri təkcə nəsrimizə parlaq və maraqlı müəlliflərin gəldiyi həmin illərlə deyil, həm də bu illərin əvvəlki ədəbi üçün dönüş illəri olması ilə müəyyənləşir.

Sözügedən dövrün əsərlərində fentezi elementlərini Anarda, Elçində, Mövlud Süleymanlıda görürük.

Elçinin əsərləri arasında bəzən reallığın mistikaya qarışdığı, fentezi elementləri ilə zəngin simvolik novellaları qeyd etmək olar.

"Əlaqə" (1976) povestində Anar fərz edir ki, əlaqə yalnız yad düşüncə sistemi mövcud olduqda, bizim labüd məntiqi təfəkkür qanunlarını, hadisələrin səbəb-nəticə əlaqələrini pozmaqla, bənzərliklərin axtarışından və rasional izahlardan imtina etməklə mümkündür. İnsanın psixoloji fantastika haləsi ilə mübarizəsi onun özünün özündən uzaqlaşması ilə cəfəng xarakter alır və fərdin daxili aləminə keçir.

Mövlud Süleymanlı 70-ci illərdə ədəbiyyata gələn nasirlərdəndir. Onun üçün gerçəkliyin özü əfsanəvidir. Folklorun göz önündəki real, müasir ədəbiyyata müsbət təsirini qeyd etsək, folklor bizim ədəbiyyat üçün həmişə həqiqi xəzinə, münbit zəmin olmuşdur. M.Süleymanlı folklordan yeni üsul kimi istifadə edir: xarici elementlərdən – süjetlərdən, ifadələrdən, dillərdən imtina etmədən, folklor düşüncəsi modelindən istifadəyə yönəlir, müasir dünyanı nağıl gözü ilə seyr etməyə meyil edir, dünyanı sirli, sehrli görməyə can atır. Onun bütün yaradıcılığı həyat möcüzələrinə inama, dünyanı əfsanəvi hissetmə istəyinə yönəlmişdir. "Mövlud nağılı nağıl deyil, həyatın özü sayır. Daha dəqiqi, həyatın özünü nağıl sayır".[1] O, reallığı, mifik interpretasiyanı alleqoriya, yuxu kimi, bir-birinə qarşı mübarizə aparan xeyir və şər, işıq və qaranlıq, iblis və mələklər kimi əfsanəvi qüvvələrlə, faciəvi epos kimi görür. Personajların fəaliyyət göstərdiyi məkanı da həmçinin... Məkan daha geniş anlayışda – məişət və ya insan ruhunun məkanı, coğrafi və ya tarixi, şərti düşünülmüş reallıq məkanıdır. Sənətkar nə qədər parlaq olarsa, onun yaratdığı məkan da bir o qədər parlaq olar. Nəsrdə insan və məkanın qarşılıqlı münasibəti iki formada mövcuddur: şəxsiyyətdən kənarda olan məkan kimi və onun dərinliyində olan məkan kimi. M.Baxtin bunu belə ifadə edir: "Dünyanın insanla ikili əlaqəsi var – onun dünyagörüşü kimi – içindən və onun ətrafı kimi – xaricindən".[2]

---

[1] Анар. Литература, искусство, культура Азербайджана. В двух томах. Т.1, Баку, 2010, 874 с.

[2] Бахтин М. М. Эстетика словесного творчества. М.: Искусство, 1979, с.24

Bu fəsilin “Ən yeni Azərbaycan nəsrində fentezinin təsiri” adlanan *ikinci yarımfəsli*, yaradıcılıq bioqrafiyasında fentezi ədəbiyyatı əks olunmuş müasirlərimizin əsərlərinin təhlilinə həsr olunub. Coşğun, əfsanəvi müəllif fantaziyası, simvolik folklor obrazlarının istifadəsi Anarın “Ağ qoç, qara qoç” povestində xəyali dünya yaratmağa imkan vermişdir. Yazıçı əcaib adları olan çox geniş coğrafi məkan, təbii ərazi landşaftı, bir-birindən fərqli yaşayış məntəqələri düşünüb tapır. Anarın fantaziyasında alternativ dünya həyatın görünməyən tərəflərini açıb göstərir. Bəzən bu, ciddi-cəhdlə pərdələnir, lakin belə “pərdələnmə” düşünməyə, problemin dərinliyinə getməyə, ona kənardan baxmağa vadar edir.

Yazıçı Vladimir Qubaylovskinin qeyd etdiyi kimi, “fentezi mütaliəsi - əyləncəli istirahətdir. Orada kimsə həqiqətən rəhm etmir. Sehrli ölkədə baş verənlər heç bir halda mənimlə baş verə bilməz. Bu, sonsuz uzaq dünyadır. Əlbəttə, onun qəhrəmanlarının dərdinə şərik olmaq və hətta onlar üçün həyəcan da keçirmək olar, lakin bu dərdə şəriklik güllə keçirməyən şüşədən keçir...”.[1]

“Ağ qoç, qara qoç” povestində Anar xəyali gələcək dünya yaradır, magiyadan istifadə edir, bundan tam sərbəst şəkildə yararlanaraq “qəddar” qara qoça qarşı “xeyirxah” ağ qoçu qoymaqla əsərə folklor personajları daxil edir – çünki fentezidə hər şey mümkündür.

Müasir Azərbaycan yazıçısı Kamal Abdullanın rus, türk, polyak, fars, fransız, alman, portuqal dillərində nəşr olunmuş “Yarımçıq əlyazma” romanı da tədqiqata cəlb edilmişdir.

Romandakı hadisələr iki müstəvidə baş verir. K.Abdullanın qəhrəmanları “Dədə Qorqud” dastanından götürülmüşdür. Daim yaradıcılıq prosesində olan mədəniyyətşünas-yazıçıyaradıcılıq prosesində intellektual-mənəvi axtarışda obrazlı metamorfozları izləyir. Paralel olaraq, adət etdiyimiz reallıqdan özünəqapanmaya, eskapizmə keçid edilir. Yazıçı qədim eposa ona görə müraciət edir ki, qədim nağılın epik vəsiyyətlərindəki “zamanın hiddətinə” yeni ruh versin. Lakin romanda zaman məsafəsi, estetik ölçü hissləri dəqiqliklə duyulur. Axı “Yarımçıq əlyazma” qanunlara uyğun gələn mətni dəyişməyə can atmır! Əsatir romanın süjetinə hərəkət verən mədəniyyət ənənələrilə yanaşı, həmçinin, janrın mövcudluğu üçün əsas sayılır. Fantaziya - əsas prinsipdir. Müəllif süjeti qəfildən ayrı səmtə döndərə bilər, çünki fentezinin sehrli dünyası

---

[1] Губайловский В. Обоснование счастья: О природе фэнтези и первооткрывателе жанра / Новый мир, 2002, №3, с 174-185

xəyal edir ki, onda hər şey mümkündür. Sonuncu əlamət ən əsaslardan və təyinedici əlamətlərdən biridir.

Azərbaycan ədəbiyyatına yeni nəfəs gətirən dünya şöhrətli yazıçı, fəlsəfə doktoru, 19 kitabın müəllifi Vahid Məmmədli fentezi ədəbi janrına öz əhəmiyyətli töhfəsini vermişdir. Onun qələminin məhsulu olan üç kitabda biz, magiyaya, sehrə dalırıq, fantastik qəhrəmanlarla görüşürük, mübarizə aparırıq və sevirik. Vahid Məmmədlinin "Atropatena dastanı" trilogiyası fentezi janrının ən yaxşı ənənələrinə müvafiq yazılmışdır[1]

2012-ci ildə Bakıda Teymur Əzizovun "Aksilon. Artefaktlar haqqında əfsanələr" kitabı nəşr olunmuşdur. [2] Müəllif "Aksilon"u "Üzüklərin hökmdarı" romanının dərin təsiri altında yazmışdır. Con Tolkinin yaradıcılığına müraciətin əsas səbəbi fentezi janrının konsepsiyasını məhz onun formalaşdırmasıdır. Məhz bu yazıçının əsərləri fentezi janrının ən yaxşı nümunələri kimi, bir növ qanunu kimi həm də azərbaycanlı müəlliflər üçün bələdçidir.

Tədqiqatın yekununda nəticələr verilir və tədqiqat işinin əsas elmi-nəzəri müddəaları şərh olunur. İngilis ədəbiyyatında fentezi janrının, onun banisi Con Tolkinin yaradıcılığı timsalında janr haqqında tam nəzəri təsəvvürün formalaşması sayəsində aşağıdakı nəticələr çıxarılmışdır:

1. Janrın strukturtəşkiledici və etik-estetik əsasını daxilən inanılan, məntiqi və düzgün kainat yaratmağa imkan verən miflər təşkil edir. Hər bir müəllif fentezi dünyasını qurmaq üçün öz üsulunu seçir: mifik qəhrəmanları müasir dünyaya gətirməklə, ənənəvi mifləri yeni obrazda verməklə və ya onların bəzi elementlərindən istifadə etməklə, özünün mifologiyasını düşünüb tapmaqla.

2. Bir janr kimi fentezinin səciyyəvi xüsusiyyəti müəllifin birbaşa iştirakı olmadan da inkişaf etmək qabiliyyətli və səylə işlənmiş daxili məntiqli "ikinci dünya"dır. Bu "dünya" – davamlı şəkildə uydurula və qurula bilən bir strukturdur, fanfikşnlərdə, RPG-lərdə (role playing game – rol yaratmaq oyunları), müxtəlif ədəbi əsərlərdə yaşamağa davam edir.

3. Müasir fentezi – multimediya mədəniyyəti hadisəsidir. Janrın tükənməzliyi fentezi əsərlərinin mətnləri əsasında yeni multimediya strukturları, virtual kompyuter oyunları, kino əsərləri, fanfikşnlər yaratmağa imkan verir.

---

[1] Гусейнбейли Э. Презентация книги Вахида Мамедли «Дастан об Атропатене». // 525-ая газета, 2011, 1 июня

[2]Азисов Т.К. Аксилон. Легенда об артефактах. Баку: «MBM», 2012, 224 с.

4. Fentezi ədəbiyyatda, musiqidə, rəssamlıqda, memarlıqda, kompyuter oyunları və RPG-lər sahəsində öz inkişafını davam etdirir.

Mövcud elmi və sorğu ədəbiyyatlarında "fentezi" termininin təfsirlərinin ümumiləşdirilməsi və təhlili, fentezinin ədəbi janr kimi əsas xüsusiyyətini əks etdirən müstəqil tərifinin verilməsinə imkan yaratmışdır. Lakin görülmüş işlərə baxmayaraq, fentezi müxtəlif mənalı və az tədqiq olunan janr kimi qalmaqdadır.

Bu janrın hazırda da öyrənilməsinin aktual və zəruri olması şübhəsizdir. Fentezi ilə əlaqəli problemlər gələcək təhlillər və tədqiqatlar tələb edir.

Düşünürük ki, bu tədqiqatların böyük perspektivləri var. Azərbaycan fentezisinin ən maraqlı, əhəmiyyətli nümunələrinin ciddi elmi təhlilini aparmaq və bu əsərləri dünya oxucularının diqqətinə çatdırmaq ədəbiyyatşünaslarımızın qarşısında duran ən ciddi və mühüm problemlərdən biridir.

Dissertasiya işinin məzmununu əks etdirən aşağıdakı elmi işlər dərc olunmuşdur:

1. Фэнтези-жанр фантастической литературы // Filologiya məsələləri. Bakı: 2011, № 6, s. 226-235
2. «Средиземье» Джона Толкина / Модернизация научных исследований. XXI Международная научно-практическая конференция. Украина: Горловка, 2012, c.73-77
3. Демонология Толкина //Beynəlxalq elmi-nəzəri jurnal. Язык и литература. Bakı: BDU, 2013, № 4(88), s. 198-200
4. История зарождения и основы фэнтези./ Respublika Elmi-Nəzəri Konfransı. Bakı: BDU, 2014, s.142-147
5. Джон Толкин и развитие фэнтези в мировой литературе // Elmi xəbərlər. Ученые записки.Bakı: ADU, 2015, № 2, s.279-287
6. Жанр «фэнтези» в современной азербайджанской прозе // Вестник Днепропетровского Университета им. А.Нобеля. Украина: Филологические науки, 2015, №2 (10), с. 59-64
7. Фэнтезийный мир в «Неполной рукописи» Камала Абдуллы // Вестник Московского государственного областного университета. Филология, 2016, №2, с.102-110
8. Художественно-мифологическая система и английские традиции в жанре фэнтези // Beynəlxalq elmi-nəzəri jurnal. Язык и литература. Bakı: BDU, 2016, № 2(98), s. 195-197.

Sevinj Ali Sideif-zade

# THE FANTASY GENRE IN CONTEMPORARY ENGLISH LITERATURE

## Summary

The thesis deals with the latest literary genre – fantasy, which combines ancient and modern traditions of art.

The first chapter – “The prerequisites of the genesis of the fantasy genre" covers the issues related to the elements of literature and culture, provided the basis to a new genre. The history of the emergence of the genre and ancient samples of fantasy have also been analyzed.

The second chapter “The English fantasy and Tolkien’s works" studies the phenomenon of Tolkien’s literary heritage in the context of the formation of fantasy as a genre. The history of formation of Tolkien as an author of mythology as well as the works of writers who continue the traditions of Tolkien have been under investigation.

The third chapter entitled “Fantasy in Azerbaijani literature" deals with revealing the elements of fantasy in the contemporary Azerbaijani prose. The genre of fantasy as a phenomenon of contemporary culture is the space which requires detailed research and in-depth study.

The Conclusion of the dissertation summarizes the research results.

Çapa imzalanıb: 05.12.2017.
Format: 60x84 1/16. Tiraj: 100.

**«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi**
Bakı, Rəsul Rza küç., 125/139b
tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru